# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası”nın təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Xüsusi nəqliyyat almaq üçün tibbi göstərişləri olan əlillərin avtomobil və motorlu araba ilə təmin edilməsi qaydaları haqqında” 1993-cü il 5 avqust tarixli 433 nömrəli Qərarında dəyişiklik edilməsi və “İkinci Dünya müharibəsi iştirakçılarının protez-ortopediya məmulatları, əlillərin, sağlamlıq imkanları məhdud uşaqların, fövqəladə hallarda insanların xilas edilməsində və tibbi yardım göstərilməsində iştirak edərək ziyan çəkmiş vətəndaşların protez-ortopediya məmulatları, əlil kreslo-veloarabaları, texniki və başqa reabilitasiya vasitələri ilə təmin edilməsi Qaydalarının təsdiq edilməsi haqqında” 2002-ci il 8 iyul tarixli 103 nömrəli Qərarının ləğv edilməsi barədə**

“Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanının 1.1.18-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. “Xüsusi nəqliyyat almaq üçün tibbi göstərişləri olan əlillərin avtomobil və motorlu araba ilə təmin edilməsi qaydaları haqqında”

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 5 avqust tarixli 433 nömrəli Qərarının 1-ci, 2-ci və 3-cü hissələri ləğv edilsin.

3. “İkinci Dünya müharibəsi iştirakçılarının protez-ortopediya məmulatları, əlillərin, sağlamlıq imkanları məhdud uşaqların, fövqəladə hallarda insanların xilas edilməsində və tibbi yardım göstərilməsində iştirak edərək ziyan çəkmiş vətəndaşların protez-ortopediya məmulatları, əlil kreslo-veloarabaları, texniki və başqa reabilitasiya vasitələri ilə təmin edilməsi Qaydalarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 8 iyul tarixli 103 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 7, maddə 443; 2008, № 2, maddə 130; 2011, № 1, maddə 54; 2016, № 2 (II kitab), maddə 377, № 11, maddə 1976) ləğv edilsin.

4. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 18 dekabr 2020-ci il

№ 501

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2020-ci il 18 dekabr
tarixli 501 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası

## 1. Ümumi müddəalar

1.1. "Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası" (bundan sonra – Qayda) "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 30.2-ci maddəsinə əsasən hazırlanmışdır və əlilliyi olan şəxslərin (bundan sonra – Şəxs) reabilitasiya vasitələri ilə təmin edilməsinin şərtlərini və qaydasını müəyyən edir.

1.2. Şəxsin reabilitasiya vasitələri ilə təmin edilməsi Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (bundan sonra – Nazirlik) tərəfindən Nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi (bundan sonra – Agentlik) və Sosial Xidmətlər Agentliyi vasitəsilə Nazirlik üçün hər il üzrə dövlət büdcəsindən ayrılan vəsait çərçivəsində həyata keçirilir.

1.3. Şəxs "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən sığortalanmış olduğu hallarda, bu Qaydaya uyğun olaraq dövlət büdcəsi hesabına təmin edilən reabilitasiya vasitələri istisna olmaqla, digər reabilitasiya vasitələri ilə həmin Qanunda nəzərdə tutulmuş qaydada təmin edilir.

1.4. Reabilitasiya vasitələri ilə təmin edilmə bu Qaydanın əlavəsi ilə müəyyən olunmuş tibbi göstərişlər olduğu halda, Agentliyin tibbi-sosial ekspert komissiyalarının qərarı əsasında Fərdi Reabilitasiya Proqramında müəyyənləşdirilməklə, minik avtomobilinə münasibətdə Sosial Xidmətlər Agentliyi tərəfindən, digər reabilitasiya vasitələrinə münasibətdə isə Agentliyin tabeliyindəki Protez-Ortopedik Bərpa Mərkəzi (bundan sonra – Mərkəz) tərəfindən səyyar, ambulator və stasionar formada "Əlilliyi olan şəxslərin hüququları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

1.5. Reabilitasiya vasitələrinin texniki normativ hüquqi aktlara uyğunluğuna nəzarət Nazirlik tərəfindən həyata keçirilir.

## 2. Əlilliyi olan şəxsə reabilitasiya vasitələrinin verilməsi

2.1. Bu Qaydanın 1.4-cü bəndinə uyğun olaraq, Fərdi Reabilitasiya Proqramında reabilitasiya vasitələrinə dair müvafiq göstərişlərin müəyyən edildiyi tarixdən etibarən minik avtomobilləri Sosial Xidmətlər Agentliyi və ya Nazirliyin tabeliyindəki “Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi”nin “DOST” mərkəzləri (bundan sonra – “DOST” mərkəzi), digər reabilitasiya vasitələri isə Mərkəz və ya “DOST” mərkəzi tərəfindən Şəxsin və ya onun qanuni nümayəndəsinin müraciəti əsasında onlara təhvil verilir.

2.2. Bu Qaydanın 2.1-ci bəndində göstərilən qurumlar Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sistemi (bundan sonra – MEİS) vasitəsilə müvafiq qeydlər aparmaqla reabilitasiya vasitələrini Şəxsə və ya onun qanuni nümayəndəsinə şəxsiyyəti təsdiq edən sənəd və ya Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə vəsiqəsi, qanuni nümayəndəyə münasibətdə isə müvafiq etibarnamə əsasında təhvil verirlər.

2.3. Müraciət qəbul edilərkən və yaxud reabilitasiya vasitələrinin (minik avtomobili istisna olmaqla) hazırlanması üçün müvafiq ölçülərin götürülməsi zamanı ölçülərin götürülməsi və ya hazır reabilitasiya vasitəsinin alınması tarixi barədə Şəxsə və ya onun qanuni nümayəndəsinə məlumat verilir.

2.4. Şəxs reabilitasiya vasitələri ilə bu Qaydanın əlavəsi ilə müəyyən olunmuş sayda, həmçinin tibbi göstərişlər, əks göstərişlər nəzərə alınmaqla hazırlanma, dəyişdirilmə və ya təmir müddətləri çərçivəsində təmin edilir.

2.5. Reabilitasiya vasitələrinin hazırlanması və ya təmiri müddəti Şəxsin müraciətinin Mərkəz və ya “DOST” mərkəzi tərəfindən qəbul edildiyi gündən hesablanır.

2.6. Reabilitasiya vasitələri üçün bu Qaydanın əlavəsi ilə müəyyən olunmuş təminat müddətləri reabilitasiya vasitələrinin Şəxsə və ya onun qanuni nümayəndəsinə təhvil verildiyi gündən hesablanır.

2.7. Reabilitasiya vasitələri, bu Qaydanın 3-cü hissəsinin müddəaları nəzərə alınmaqla, müəyyən edilmiş təminat müddətində reabilitasiya vasitələrində istehsal qüsuru aşkarlandığı təqdirdə, eləcə də reabilitasiya vasitələrinin istifadə müddəti başa çatmazdan

əvvəl yararsız vəziyyəti düşdükdə həmin reabilitasiya vasitələrini təmir etmək mümkün olmadıqda Mərkəz tərəfindən yenisi ilə əvəz edilir.

2.8. Reabilitasiya vasitələrinin hazırlanması və təmiri ilə bağlı səyyar xidmətlər göstərildiyi hallarda Şəxsin və ya onun qanuni nümayəndəsinin müraciəti üzrə işlər 40 (qırx) gün müddətində yerinə yetirilir.

2.9. Eksperimental-sınaq qaydasında düzəldilən, qeyri-tipik və xüsusi mürəkkəb reabilitasiya vasitələrinin hazırlanması müddətləri fərdi olaraq Mərkəzin tibbi-texniki komissiyasının qərarı ilə müəyyənləşdirilir.

2.10. Şəxsin və ya onun qanuni nümayəndəsinin Mərkəzə gəlmək imkanı olmadıqda, reabilitasiya vasitəsi ona yaşayış yerində verilir.

## 3. Əlilliyi olan şəxslərin minik avtomobili və təkərli oturacaqla (mühərrikli və mexaniki) təmin edilməsi

3.1. Minik avtomobili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 yanvar tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyin qiymətləndirilməsi Qaydası"nın 1.5-ci bəndinə əsasən xüsusi səbəblə, habelə Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar əlilliyi müəyyən olunmuş şəxslərə verilir.

3.2. Şəxs minik avtomobili və ya mühərrikli təkərli oturacaqla MEİS-də Fərdi Reabilitasiya Proqramının tərtib edilmə ardıcıllığına görə formalaşan növbəliliyə (bu Qaydanın 3.3-cü bəndi nəzərə alınmaqla) uyğun olaraq təmin edilir. Şəxs vəfat etdikdə onun növbəsi ləğv edilir.

3.3. Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər minik avtomobili ilə növbədənkənar təmin olunurlar.

3.4. Bu Qaydanın 1.4-cü bəndinə uyğun olaraq minik avtomobili və ya mühərrikli təkərli oturacaq təyini barədə qərar verildiyi gün Şəxsə dair məlumatlar MEİS-dəki növbəlilik siyahısına daxil edilir.

3.5. Şəxs özünün növbəsi barədə məlumatları Nazirliyin "e-sosial" internet portalından əldə edə bilər.

3.6. Tibbi göstərişlərdə Şəxsin həm minik avtomobilinə, həm də mühərrikli təkərli oturacağa ehtiyacına göstəriş olduğu halda, Şəxsin seçimi ilə onlardan biri təyin edilir.

3.7. Şəxs bu Qaydanın 3.6-cı bəndinə uyğun olaraq hər iki reabilitasiya vasitəsini əldə etmək istədikdə, ikinci reabilitasiya vasitəsi ona ödənişli əsaslarla növbədənkənar verilir.

3.8. Tibbi göstəriş olduğu halda, Şəxs həm açıq məkanda (mühərrikli təkərli oturacaqla təmin edilənlər istisna olmaqla), həm də qapalı məkanda (otaqda) istifadə üçün, eləcə də sanitar təchizatlı mexaniki təkərli oturacaqla təmin olunur. Təkərli oturacaqlar təyin edilərkən, Şəxsin yaşı, çəkisi və boyu nəzərə alınır.

3.9. Bu Qaydanın 3.14-cü bəndində nəzərdə tutulmuş hal istisna olmaqla, Şəxsə verilmiş minik avtomobilinin və ya mühərrikli təkərli oturacağın satılması və ya bağışlanması qadağandır. Minik avtomobilini idarə etmək hüququ həm Şəxsə, həm də onunla eyni yaşayış məntəqəsində yaşayan sürücülük vəsiqəsi olan ailə üzvünə verilir.

3.10. Minik avtomobili Nazirliyin mülkiyyətində saxlanılmaqla qeydiyyata götürülür.

3.11. Sosial Xidmətlər Agentliyinin tabeliyindəki sosial xidmət müəssisələrində tam dövlət təminatında olan Şəxslərə minik avtomobili verilmir.

3.12. Şəxs üçün mühərrikli və mexaniki təkərli oturacaqların idarə edilməsi bacarıqları üzrə təlimlər Agentlik tərəfindən təşkil edilir.

3.13. Mühərrikli təkərli oturacaq bu Qaydanın əlavəsi ilə müəyyən olunmuş istifadə müddəti bitdikdən sonra Agentliyin qərarı əsasında Mərkəz tərəfindən yenisi ilə əvəz olunur.

3.14. Minik avtomobili verilmiş Şəxs vəfat etdikdən sonra avtomobil onun ailəsinin mülkiyyətində qalır və vəfat etmiş Şəxsin ailə üzvündən birinin adına keçirilməklə qeydiyyatdan çıxarılır.

3.15. Minik avtomobili və ya mühərrikli təkərli oturacaq almış ailəsi olmayan Şəxs vəfat etdikdə, minik avtomobili Sosial Xidmətlər Agentliyi, mühərrikli təkərli oturacaq isə Agentlik tərəfindən götürülür və növbəlilik siyahısındakı ardıcıllığa uyğun olaraq digər Şəxsə verilir.

3.16. Şəxsə verilmiş mexaniki təkərli oturacaqlar istifadə müddəti başa çatmamışdan əvvəl yararsız vəziyyətə düşdükdə, Şəxsin və ya onun qanuni nümayəndəsinin müraciəti əsasında Mərkəzdə həmin reabilitasiya vasitələrinə 3 (üç) iş günü müddətində

texniki baxış keçirilir, təmiri mümkün olmadıqda Mərkəzin tibbi-texniki komissiyası tərəfindən protokol tərtib edilməklə Mərkəz tərəfindən yenisi ilə əvəz olunur.

3.17. Hüququ yarandığı halda Şəxs minik avtomobili ilə təmin edilənədək, Sosial Xidmətlər Agentliyi tərəfindən onlara ildə iki dəfə nəqliyyat xərci kimi əmək pensiyasının minimum məbləğinin 20 faizi məbləğində pul kompensasiyası verilir.

## 4. Yekun müddəa

4.1. Bu Qaydanın müddəalarının pozulmasından "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinə uyğun olaraq inzibati qaydada və (və ya) məhkəməyə şikayət verilə bilər.

“Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə
təmin edilməsi Şərtləri və Qaydası”na
**əlavə**

## Əlilliyi olan şəxslərə reabilitasiya vasitələrinin verilməsinə dair tibbi göstərişlər, əks göstərişlər, reabilitasiya vasitələrinin istifadə, təminat, hazırlanma, təmir və ya dəyişdirilmə müddətləri

| Sıra №-si | Reabilitasiya vasitəsinin adı və növü | Reabilitasiya vasitələrnin verilməsinə dair tibbi göstərişlər | Əks göstərişlər | Sayı və ölçü vahidi | İstifadə müddəti | Təminat müddəti | Hazırlanma müddəti | Təmir və ya dəyişdirilmə müddəti |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| 1. | **Yuxarı və aşağı ətraf protezi** | yuxarı və aşağı ətrafın müxtəlif səviyyədə itirilməsi və inkişaf çatışmazlığı nəticəsində yaranmış kosmetik və funksional çatışmazlığın bərpası məqsədilə təyin edilir | stasionar şəraitdə müalicə tələb edən tez-tez kəskinləşməyə və dekompensasiyaya, residivə meyilli ruhi xəstəliklər; fəal fazada bədxassəli şişlər; müxtəlif mənşəli kaxeksiyalar; geniş trofik və yataq yaraları; irinli-nekrotik xəstəliklər; yoluxucu və zöhrəvi xəstəliklər | protez yerindən və növündən asılı olaraq dəyişir | 2 ildən az olmayaraq | 2 ay | 20 iş günü | dəyişdirilmə müddəti 20 iş günü; təmir müddəti 10 iş günü |
| 2. | **Yuxarı ətraf işçi protezi** | yuxarı ətrafın müxtəlif səviyyədə itirilməsi halında hər hansı bir məişət fəaliyyətini yerinə yetirməyə kömək göstərilməsi üçün təyin edilir Məişət fəaliyyəti üçün tələb olunan alət (çəkic, kəlbətin və s.) formasında hazırlanır | stasionar şəraitdə müalicə tələb edən tez-tez kəskinləşməyə və dekompensasiyaya, residivə meyilli ruhi xəstəliklər; fəal fazada bədxassəli şişlər; müxtəlif mənşəli | 1 ədəd | 18 yaşdan yuxarı şəxslər üçün 1 il, 18 yaşa qədər şəxslər üçün - 18 yaşa qədər şəxslərin | 2 ay | 20 iş günü | dəyişdirilmə müddəti 20 iş günü; təmir müddəti 10 iş günü |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | kaxeksiyalar; geniş trofik və yataq yaraları; irinli-nekrotik xəstəliklər; yoluxucu və zöhrəvi xəstəliklər | | inkişafı ilə əlaqədar ildə iki dəfədən az olmayaraq, Mərkəzin tibbi-texniki komissiya-sının rəyi əsasında dəyişir | | | |
| **3.** | **Yüksək texnologiyalı protez** | iki və daha çox ətrafını müxtəlif səviyyədə itirmiş və ya inkişaf çatışmazlığı nəticəsində yaran-mış kosmetik və funksional çatışmazlığı olan, əlilliyi olan şəxslərə; bir və daha çox ətrafını müxtəlif səviyyədə itirmiş və ya inkişaf çatışmaz-lığı nəticəsində yaranmış kosmetik və funksional çatış-mazlığı olan xüsusi səbəbdən, habelə terror hadisəsi ilə əlaqədar əlilliyi olan şəxslərə təyin edilir | stasionar şəraitdə müalicə tələb edən tez-tez kəskinləş-məyə və dekompen-sasiyaya, residivə meyilli ruhi xəstəliklər; fəal fazada bədxassəli şişlər; müxtəlif mənşəli kaxeksi-yalar; geniş trofik və yataq yaraları; irinli-nekrotik xəstəliklər; yoluxucu və zöhrəvi xəstəliklər | protez yerindən və növündən asılı olaraq dəyişir | 3 ildən az olmayaraq | 6 ay | 20 iş günü | dəyişdirilmə müddəti 20 iş günü; təmir müddəti 10 iş günü |
| **4.** | **Bud üçün corab (xovlu, yun, pambıq, neylon və s.)** | aşağı ətraf (bud) protezlərin-dən istifadə üçün təyin edilir | | 10 ədəd | 1 il | 10 gün | | |
| **5.** | **Baldır üçün corab (xovlu, yun, pambıq, neylon və s.)** | aşağı ətraf (baldır) protezlərin-dən istifadə üçün təyin edilir | | 15 ədəd | 1 il | 10 gün | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **6.** | **Kompression və ya venoz corab** | aşağı ətraf venalarının varikoz genişlənməsi, flebit və trombo-flebit, angiodisplaziya, limfostaz zamanı müalicə və profilaktika məqsədilə təyin edilir | trofik pozuntular | 2 ədəd | 1 il | 10 gün | | dəyişdirilmə müddəti 7 iş günü |
| **7.** | **Silikon içlik** | aşağı ətraf protezlərindən istifadə üçün təyin edilir | məhsulun hazırlan-dığı materiallara qarşı allergik reaksiya | 2 ədəd | 1 il | 30 gün | | dəyişdirilmə müddəti 7 iş günü |
| **8.** | **Dermo corab** | aşağı ətraf protezlərindən istifadə olunduqda, güdülə geyindirmək üçün təyin edilir | məhsulun hazırlan-dığı materiallara qarşı allergik reaksiya | 2 ədəd | 1 il | 30 gün | | dəyişdirilmə müddəti 7 iş günü |
| **9.** | **Tutor** | yuxarı və aşağı ətrafın hissə-lərinin və oynaqlarının hərə-kətsiz funksiyasının korrek-siyası üçün təyin edilir | oynaqların kontrak-turası; əzələ distrofiyaları; özünəqulluq və davranışa nəzarət etmək qabiliyyətini məhdudlaşdıran psixi pozuntular | 1 ədəd | 18 yaşdan yuxarı şəxslər üçün 1 il, 18 yaşa qədər şəxslər üçün 6 ay | 1 ay | 15 iş günü | dəyişdirilmə müddəti 15 iş günü; təmir müddəti 5 iş günü |
| **10.** | **Korset** | gövdənin zədələnməsi və deformasiyası zamanı, qarın boşluğu və qarın divarı xəstəliklərində, onurğanın normal funksional vəziyyətdə fiksasiyası, onun yükünün azaldılması və deformasiya-ların korreksiyası, itirilmiş funksiyaların bərpası və yaxud ağırlaşmaların qarşısını almaq üçün təyin edilir | əzələ distrofiyaları; özünəqulluq və davranışa nəzarət etmək qabiliyyətini məhdudlaşdıran psixi pozuntular | 1 ədəd | 18 yaşdan yuxarı şəxslər üçün 1 il, 18 yaşa qədər şəxslər üçün - 18 yaşa qədər şəxslərin inkişafı ilə əlaqədar ildə iki dəfədən az olmayaraq, | 1 ay | 15 iş günü | dəyişdirilmə müddəti 15 iş günü; təmir müddəti 5 iş günü |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Mərkəzin tibbi-texniki komissiya-sının rəyi əsasında dəyişir | | | |
| **11.** | **Reklinator** | onurğa sütununun yuxarı döş hissəsində stasodinamik fun-ksiyanın pozulmasında baş verə biləcək ağırlaşmaların qarşısının alınması üçün təyin edilir | özünəqulluq və davranışa nəzarət etmək qabiliyyətini məhdudlaşdıran psixi pozuntular | 1 ədəd | 18 yaşdan yuxarı şəxs-lər üçün 1 il, 18 yaşa qədər şəxslər üçün 6 ay | 1 ay | 15 iş günü | dəyişdirilmə müddəti 15 iş günü; təmir müddəti 5 iş günü |
| **12.** | **Yuxarı və aşağı ətraf üçün elastik bandaj** | güdüllərin formalaşdırılması, yuxarı və aşağı ətrafın əzələ və bağ aparatının zədələnməsi zamanı immobilizasiya, bud və baldır protezlərini saxlamaq üçün təyin edilir | əzələ distrofiyaları; özünəqulluq və davranışa nəzarət etmək qabiliyyətini məhdudlaşdıran psixi pozuntular | diaqnozdan asılı olaraq 1 və ya 2 ədəd | 18 yaşdan yuxarı şəxslər üçün 1 il, 18 yaşa qədər şəxslər üçün 6 ay | 1 ay | 7 iş günü | |
| **13.** | **Korreksiya-edici yumşaq bandaj və korset** | onurğa sütununun deformasi-yası, ürək qüsurları, qarının ön divarının yırtıqlarında qarın boşluğu orqanlarının qorun-ması və qarın divarının möh-kəmləndirilməsi üçün təyin edilir | əzələ distrofiyaları; özünəqulluq və davranışa nəzarət etmək qabiliyyətini məhdudlaşdıran psixi pozuntular | 1 ədəd | 18 yaşdan yuxarı şəxs-lər üçün 6 ay, 18 yaşa qədər şəxs-lər üçün -18 yaşa qədər şəxslərin inkişafı ilə əlaqədar ildə iki dəfə-dən az olmayaraq, Mərkəzin tibbi-texniki komissiya- | 1 ay | 15 iş günü | dəyişdirilmə müddəti 15 iş günü; təmir müddəti 5 iş günü |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | sının rəyi əsasında dəyişir | | | |
| **14.** | **Yuxarı və aşağı ətraf protezlərini geyinmək üçün köməkçi vasitə** | aşağı və yuxarı ətraf protezlərini geyinmək üçün təyin edilir | | 1 ədəd | 1 il | 2 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| **15.** | **Ortopedik başmaq** | pəncənin ön hissəsinin amputasiyası halında təyin edilir | trofik pozuntular | yarım cüt | 18 yaşdan yuxarı şəxslər üçün 1 il, 18 yaşa qədər şəxslər üçün - 18 yaşa qədər şəxslərin inkişafı ilə əlaqədar ildə iki dəfədən az olmayaraq, Mərkəzin tibbi-texniki komissiyasının rəyi əsasında dəyişir | 1 ay | 20 iş günü | dəyişdirilmə müddəti 20 iş günü; təmir müddəti 10 iş günü |
| **16.** | **Təkayaqlı əsa** | aşağı ətraf xəstəlikləri, travmaları və anadangəlmə çatışmazlıqları nəticəsində hərəkətin çətinləşməsi hallarında itirilmiş funksiyanın bərpası üçün təyin edilir. Təyin edilərkən patologiyaların növü və ağırlıq dərəcəsi nəzərə alınır | | diaqnozdan asılı olaraq 1 və ya 2 ədəd | 1 il | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **17.** | **Üçayaqlı əsa** | aşağı ətraf xəstəlikləri, travmaları və anadangəlmə çatışmazlıqları nəticəsində hərəkətin çətinləşməsi hallarında itirilmiş funksiyanın bərpası üçün təyin edilir. Təyin edilərkən patologiyaların növü və ağırlıq dərəcəsi nəzərə alınır | | diaqnozdan asılı olaraq 1 və ya 2 ədəd | 1 il | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| **18.** | **Dördayaqlı əsa** | aşağı ətraf xəstəlikləri, travmaları və anadangəlmə çatışmazlıqları nəticəsində hərəkətin çətinləşməsi hallarında itirilmiş funksiyanın bərpası üçün təyin edilir. Təyin edilərkən patologiyaların növü və ağırlıq dərəcəsi nəzərə alınır | | diaqnozdan asılı olaraq 1 və ya 2 ədəd | 1 il | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| **19.** | **Qoltuqaltı ağac** | aşağı ətraf xəstəlikləri, travmaları və anadangəlmə çatışmazlıqları nəticəsində hərəkətin itirilmiş funksiyasının bərpası üçün təyin edilir. Təyin edilərkən patologiyanın növü və ağırlıq dərəcəsi nəzərə alınır | | 1 cüt | 1 il | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| **20.** | **Dirsəkaltı ağac** | aşağı ətraf xəstəlikləri, travmaları və anadangəlmə çatışmazlıqları nəticəsində hərəkətin itirilmiş funksiyasının bərpası üçün təyin edilir. Təyin edilərkən patologiyanın növü və ağırlıq dərəcəsi nəzərə alınır | | 1 cüt | 1 il | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| **21.** | **Reabilitasiya vasitələri üçün rezin ucluq** | əsalarla, qoltuqaltı və dirsəkaltı ağaclarla hərəkət zamanı həmin vasitələrin dayanıqlılığının təmini və sürüşməsinin qarşısının alınması üçün təyin edilir | | 20 cütdən çox olmayaraq | 1 il | | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 22. | **Dördayaqlı hərəkət vasitəsi** | dayaq-hərəkət aparatının funksiyasının pozulması halında təyin edilir | | 1 ədəd | 1 il | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| 23. | **Ortopedik ayaqqabı** | pəncənin deformasiyası, itirilmiş funksiyasının bərpası və hərəkətinin asanlaşdırılması üçün təyin edilir. Hər bir əlilliyi olan şəxs üçün xüsusi hazırlanır | trofik pozuntular | 2 cüt | 1 il | 1 ay | 20 iş günü | hazırlanma müddəti 20 iş günü; təmir müddəti 10 iş günü |
| 24. | **Protez üçün ayaqqabı** | aşağı ətraf protezləri üçün hazırlanır | | 2 cüt | 1 il | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| 25. | **Rezin yanlıqlı ayaqqabı** | hər iki əli amputasiya olunmuş əlilliyi olan şəxslər üçün təyin edilir. Hər bir əlilliyi olan şəxs üçün xüsusi hazırlanır | | 1 cüt | 1 il | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| 26. | **Geyinmə, soyunma və tutmaq üçün yardımçı vasitələr** | yuxarı ətraf protezləri, yuxarı ətraflarda deformasiya, çapıq, toxuma dəyişikliyi, dəri örtüyü, əzələlərdə dərin dəyişiklik, deformasiya və çatışmazlıq zamanı təyin edilir. Həmin vasitələrin köməyi ilə əlilliyi olan şəxslərə yaşayış sahələri və yaxud iş yerlərində yemək hazırlama, qabyuma, ayaqqabı geyinib-soyunma, qapı-pəncərəni açıb-bağlama, digər hər hansı bir işi görmək və s. yerinə yetirməyə kömək göstərilməsi nəzərdə tutulur | yuxarı ətrafın paraplegiyası; hər iki yuxarı ətrafın bazu oynağından amputasiyası; vestibülyar aparatın dərin pozğunluqları; davranışa nəzarət etmək qabiliyyətini məhdudlaşdıran psixi pozuntular | 1 ədəd | 5 il | 6 ay | | dəyişdirilmə müddəti 7 iş günü |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **27.** | **Oynaq endoprotezi** | yuxarı və aşağı ətrafın iri oynaqlarında gedən patoloji dəyişikliklər nəticəsində oynaqlarda kəskin hərəkət pozuntusu və ağrı sindromu olduğu hallarda cərrahi yolla oynaqların funksiyası süni oynaqlarla əvəz edilərək, ətrafların funksiyalarının bərpası üçün təyin edilir | | təyinatından asılı olaraq dəyişir | müddətsiz təyin edilir. Hər hansı bir ağırlaşma baş verdikdə, dəyişməyə göstəriş olarsa yenisi ilə əvəz olunur | 1 ay | | dəyişdirilmə müddəti 1 ay |
| **28.** | **Süd vəzi protezi** | aparılmış mastoektomiya əməliyyatından sonra süd vəzi yerində yaranmış kosmetik çatışmazlığı aradan qaldırmaq üçün təyin edilir (protez və büsthalter birlikdə verilir) | məhsulun hazırlandığı materiallara qarşı allergik reaksiya | 1 ədəd | 1 il | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| **29.** | **Süd vəzi büsthalteri** | süd vəzi protezlərinin fiksasiyası üçün təyin edilir (protez və büsthalter birlikdə verilir) | məhsulun hazırlandığı materiallara qarşı allergik reaksiya | 2 ədəd | 1 il | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| **30.** | **Səs protezi (səs aparatı)** | qırtlağın zədələri, anadangəlmə inkişaf pozuntuları və xəstəlikləri nəticəsində larinqoektomiyadan sonra səsin bərpası üçün təyin edilir | eşitmə-görmə qabiliyyətinin məhdudluğu; bulbar sindromu; traxeostomiya bölgəsində iltihablı proses, II-III dərəcə tənəffüs çatışmazlığı | 1 ədəd | 1 il | 1 ay | | təmir müddəti 1 ay |
| **31.** | **Diş protezi** | dişlərin itirilməsi, anadangəlmə olmaması, çənənin alveolyar çıxıntısı və çənə sümüyünün inkişaf pozulmalarında, əməliy- | bədxassəli şişlər, ağız boşluğunun iltihablı xəstəlikləri | 1 ədəd | 18 yaşdan yuxarı şəxslər üçün 2 il, 18 yaşa qədər | | 1 ay | dəyişdirilmə müddəti 1 ay |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | yatdan sonra çənə sümüyü çatışmazlığı zamanı təyin edilir | | | şəxslər üçün -18 yaşa qədər şəxslərin inkişafı ilə əlaqədar ildə iki də-fədən az olmayaraq, Mərkəzin tibbi-texniki komissiya-sının rəyi əsasında dəyişir | | | |
| **32.** | **Göz protezi** | göz almasının inkişafdan qalması və ya olmaması (anoftalm) vəziyyətində kosmetik çatışmaz-lığın aradan qaldırılması üçün təyin edilir | | 1 ədəd | 2 il | 2 ay | 1 ay | dəyişdirilmə müddəti 1 ay |
| **33.** | **Eşitmə aparatı** | eşitmə məhdudluğunun aradan qaldırılması üçün təyin edilir | | diaqnozdan asılı olaraq 1 və ya 2 ədəd | 2 il | 3 ay | | təmir müddəti 1 ay |
| **34.** | **Eşitmə aparatı üçün qulaqlıq** | eşitmə aparatı verilmiş əlilliyi olan şəxslərə təyin edilir | | diaqnozdan asılı olaraq 1 və ya 2 ədəd | 1 il | 1 ay | 20 iş günü | dəyişdirilmə müddəti 20 iş günü |
| **35.** | **Qulaq protezi** | qulağın anadangəlmə inkişaf çatışmazlığı, zədə və xəstəliklər (əksər hallarda onkoloji) nəticə-sində aparılmış əməliyyatlardan sonra əmələ gəlmiş kosmetik çatışmazlığın aradan qaldırılması üçün təyin edilir | | diaqnozdan asılı olaraq 1 və ya 2 ədəd | 18 yaşdan yuxarı şəxs-lər üçün 2 il, 18 yaşa qədər şəxslər üçün 1 il | 2 ay | 20 iş günü | dəyişdirilmə müddəti 20 iş günü |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **36.** | **Burun protezi** | burunun anadangəlmə inkişaf çatışmazlığı, zədə və xəstəliklər nəticəsində aparılmış əməliyyatlardan sonra əmələ gəlmiş kosmetik çatışmazlığın aradan qaldırılması üçün təyin edilir | | diaqnozdan asılı olaraq 1 və ya 2 ədəd | 18 yaşdan yuxarı şəxslər üçün 2 il, 18 yaşa qədər şəxslər üçün 1 il | 2 ay | 20 iş günü | dəyişdirilmə müddəti 20 iş günü |
| **37.** | **Sifət protezi** | sifətin anadangəlmə inkişaf çatışmazlığı, zədə və xəstəliklər nəticəsində aparılmış əməliyyatlardan sonra əmələ gəlmiş kosmetik çatışmazlığın aradan qaldırılması üçün təyin edilir | | 1 ədəd | 18 yaşdan yuxarı şəxslər üçün 2 il, 18 yaşa qədər şəxslər üçün 1 il | 2 ay | 3 ay | dəyişdirilmə müddəti 3 ay |
| **38.** | **Göz yuvasının protezi** | göz almasının inkişafdan qalması və ya olmaması (anoftalm) halında kosmetik çatışmazlığın aradan qaldırılması üçün təyin edilir | | diaqnozdan asılı olaraq 1 və ya 2 ədəd | 18 yaşdan yuxarı şəxslər üçün 2 il, 18 yaşa qədər şəxslər üçün 1 il | | 1 ay | dəyişdirilmə müddəti 1 ay |
| **39.** | **Damaq protezi** | damağın anadangəlmə inkişaf çatışmazlığı, zədə və xəstəliklər nəticəsində aparılmış əməliyyatlardan sonra əmələ gəlmiş kosmetik çatışmazlığın aradan qaldırılması üçün təyin edilir | | 1 ədəd | 18 yaşdan yuxarı şəxslər üçün 2 il, 18 yaşa qədər şəxslər üçün 1 il | 2 ay | 1 ay | dəyişdirilmə müddəti 1 ay |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **40.** | **Ehtiyat protezləri** | yuxarı və aşağı ətraf protezləri olan əlilliyi olan şəxslərə, zəruriyyətdən irəli gələrək, əsas protezlərlə yanaşı ehtiyat protezlər də təyin edilir | stasionar şəraitdə müalicə tələb edən tez-tez kəskin-ləşməyə və dekompensasiyaya, residivə meyilli ruhi xəstəliklər; fəal fazada bədxassəli şişlər; müxtəlif mənşəli kaxeksi-yalar; geniş trofik və yataq yaraları; irinli-nekrotik xəstəliklər; yoluxucu və zöhrəvi xəstəliklər | 1 ədəd | 18 yaşdan yuxarı şəxslər üçün 2 il, 18 yaşa qədər şəxslər üçün -18 yaşa qədər şəxslərin inkişafı ilə əlaqədar ildə iki dəfədən az olmayaraq, Mərkəzin tibbi-texniki komissiya-sının rəyi əsasında dəyişir | 2 ay | 20 iş günü | dəyişdirilmə müddəti 20 iş günü; təmir müddəti 10 iş günü |
| **41.** | **Yuxarı və aşağı ətraf protezləri üçün kosmetik üzlüklər** | yuxarı və aşağı ətraf üçün əlilliyi olan şəxslərin dərisinin rənginə və zövqünə uyğun kosmetik protez üzlüklər təyin edilir | | 1 ədəd | 3 ay | 1 ay | 5 iş günü | dəyişdirilmə müddəti 5 iş günü; təmir müddəti 3 iş günü |
| **42.** | **Yuxarı və aşağı ətraf, onun ayrı-ayrı bölmələri üçün aparatlar** | yuxarı və aşağı ətrafda, həm-çinin onurğa sütununda hərə-kətin çətinləşməsi ilə əlaqədar patologiyalar olduqda, həmin çatışmazlıqların aradan qaldırıl-ması, deformasiyanın qarşısının alınması, hərəkət və dayaq oturaq funksiyasının yerinə yetirilməsi üçün təyin edilir | əzələ distrofiyaları; özünəqulluq və davranışa nəzarət etmək qabiliyyətini məhdudlaşdıran psixi pozuntular | 1 ədəd | 18 yaşdan yuxarı şəxslər üçün 1 il, 18 yaşa qədər şəxslər üçün 6 ay | 1 ay | 20 iş günü | dəyişdirilmə müddəti 20 iş günü; təmir müddəti 10 iş günü |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **43.** | **Döşəkçə, ortopedik döşək və yastıq** | yataq vəziyyətində olan, yaxud təkərli oturacaqdan uzun müddət istifadə edən əlilliyi olan şəxslərdə dəridə xoralaşmanın əmələ gəlməsinin qarşısının alınması üçün təyin edilir | | 1 ədəd | 6 ay | 20 gün | | |
| **44.** | **Danışan kitab** | görmə orqanının xəstəliyi nəticəsində əlilliyi olan şəxslərin yardımçı texniki vasitələrlə (eynək və s.) oxuması mümkün olmayan hallarda təyin edilir | eşitmə qabiliyyətinin məhdudluğu; özünəqulluq və davranışa nəzarət etmək qabiliyyətini məhdudlaşdıran psixi pozuntular | 1 ədəd | 7 il | 6 ay | | təmir müddəti 20 iş günü |
| **45.** | **Səsli tibbi tonometr** | 18 yaşdan yuxarı şəxslərə yaxşı görən gözdə görmə itiliyinin korreksiya ilə 0,03 və ondan az olması halında təyin olunur | eşitmə qabiliyyətinin məhdudluğu, hər iki qulağın eşitmə qabiliyyətinin məhdudluğu, 3-4-cü dərəcə ağır eşitmə; əqli geriliklə, demensiya ilə müşaiyət olunan psixi pozuntular | 1 ədəd | 7 il | 6 ay | | təmir müddəti 20 iş günü |
| **46.** | **Səsli termometr** | 18 yaşdan yuxarı şəxslərə yaxşı görən gözdə görmə itiliyinin korreksiya ilə 0,03 və ondan az olması halında təyin olunur | eşitmə qabiliyyətinin məhdudluğu, hər iki qulağın eşitmə qabiliyyətinin məhdudluğu, 3-4-cü dərəcə ağır eşitmə; əqli geriliklə, demensiya ilə müşaiyət olunan psixi pozuntular | 1 ədəd | 7 il | 6 ay | | təmir müddəti 20 iş günü |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **47.** | **Kolostoma torbası** | xəstəlik və yaxud travma nəticəsində bağırsaq ifrazının təbii yolla xaric edilməsinin pozulduğu hallarda ifrazatın toplanması üçün təyin edilir | | 90 ədəd | hər ay | | | |
| **48.** | **Urestoma torbası** | xəstəlik və yaxud travma nəticəsində sidik kisəsindən sidiyin təbii yolla xaric olmasının pozulduğu hallarda təyin edilir | | 90 ədəd | hər ay | | | |
| **49.** | **Kateter** | sidik kisəsi və sidik kanalından sidik ifrazının xaric edilməsinin çətinləşdiyi hallarda təyin edilir | | 5 ədəd | hər ay | | | |
| **50.** | **Hərəkətli qaldırıcı qurğu** | aşağı və yuxarı ətraf parapərezi və parapelgiyası zamanı bir vəziyyətdən digərinə dəyişdirilməsi üçün təyin edilir | | 1 ədəd | 8 il | 6 ay | | təmir müddəti 1 ay |
| **51.** | **Hidravlik çarpayı** | aşağı və yuxarı ətrafda kəskin hərəkət məhdudluğu və tetraplegiya zamanı təyin edilir | | 1 ədəd | 5 il | 6 ay | | təmir müddəti 1 ay |
| **52.** | **Çarpayı üçün dayaqlar** | yataq rejimli əlilliyi olan şəxslərə çarpayıda hərəkəti təmin etmək üçün təyin edilir | | 1 ədəd | 2 il | 3 ay | | təmir müddəti 15 iş günü |
| **53.** | **Qapalı məkanda (otaqda) istifadə üçün mexaniki təkərli oturacaq** | dayaq hərəkət sistemində, ürək qan-damar sistemində, tənəffüs sistemində, həzm sistemində və başqa sistemlərdə xəstəlik, travma və anadangəlmə inkişaf patologiyaları nəticəsində hərəkətin dayanıqlı kəskin məhdudlaşması olduğu, aşağıdakı tibbi göstərişlər olduqda təyin edilir: | | 1 ədəd | 4 il | 3 ay | | dəyişdirilmə müddəti 10 iş günü; təmir müddəti 1 ay |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | 1. III dərəcəli xroniki qan dövranı çatışmazlığı;<br>2. III dərəcəli ağciyər-ürək çatışmazlığı;<br>3. hemiplegiya, nəzərəçarpan hemiparez, aşağı paraplegiya, nəzərəçarpan aşağı paraparez, triplegiya, nəzərə çarpan triparez, nəzərəçarpan tetraparez;<br>4. kəskin nəzərəçarpan ataksiya hiperkinetik amiostatik sindrom;<br>5. bir aşağı ətrafın güdülü və bununla yanaşı, digər aşağı ətra-fın funksional yararsız vəziyyətdə olması;<br>6. hər iki aşağı ətrafın müxtəlif səviyyədə güdülü, protezləşməyə yararlı olmasından asılı olma-yaraq;<br>7. hər iki ayaq pəncəsinin Şopar oynağı səviyyəsində amputasion güdülü;<br>8. aşağı ətrafın oynaqlarının endoprotezləşməsindən sonrakı ağırlaşmalar olduğu halda;<br>9. bədxassəli şişlər, IV klinik qrup;<br>10. dərin ağıl zəifliyi, demensiya;<br>11. III-IV dərəcəli böyrək çatış-mazlığı;<br>12. qaraciyər çatışmazlığı,<br>III dərəcə.<br>Portal hipertenziya, assit;<br>13. xroniki arterial çatışmazlığı, III mərhələ;<br>14. xroniki venoz çatışmazlığı, III dərəcə | | | | | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **54.** | **Açıq məkanda istifadə üçün mexaniki təkərli oturacaq** | əlilliyi olan şəxslərin dayaq hərəkət, ürək qan-damar, tənəffüs, həzm və digər sistemlərində xəstəlik, travma və anadangəlmə inkişaf patologiyaları nəticəsində hərəkətin dayanıqlı kəskin məhdudlaşması ilə əlaqədar (hər iki yuxarı ətrafda hərəkətsizlik və yaxud kəskin hərəkət məhdudluğu istisna olmaqla) aşağıdakı tibbi göstərişlər olduqda təyin edilir:<br>1. III dərəcəli xroniki qan dövranı çatışmazlığı;<br>2. III dərəcəli ağciyər-ürək çatışmazlığı;<br>3. hemiplegiya, nəzərəçarpan hemiparez, aşağı paraplegiya, nəzərəçarpan aşağı paraparez;<br>4. bir aşağı ətrafın güdülü və digər aşağı ətrafın funksional yararsız vəziyyətdə olması;<br>5. hər iki aşağı ətrafın müxtəlif səviyyədə güdülü, protezləşməyə yararlı olmasından asılı olmayaraq;<br>6. hər iki ayaq pəncəsinin Şopar oynağı səviyyəsində amputasion güdülü;<br>7. aşağı ətrafın oynaqlarının endoprotezləşməsindən sonrakı ağırlaşmalar olduğu halda;<br>8. bədxassəli şişlər, IV klinik qrup;<br>9. III-IV dərəcəli böyrək çatışmazlığı; | | 1 ədəd | 3 il | 3 ay | | dəyişdirilmə müddəti 10 iş günü; təmir müddəti 1 ay |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | 10. qaraciyər çatışmazlığı,<br>III dərəcə.<br>Portal hipertenziya, assit;<br>11. xroniki arterial çatışmazlığı,<br>III mərhələ;<br>12. xroniki venoz çatışmazlığı,<br>III dərəcə | | | | | | |
| **55.** | **Mühərrikli təkərli oturacaq** | yuxarı və aşağı ətrafda hərəkətin kəskin məhdudlaşması ilə əlaqədar aşağıdakı tibbi göstərişlər olduqda təyin edilir:<br>1. hemiplegiya, nəzərəçarpan hemiparez, aşağı paraplegiya, nəzərəçarpan aşağı paraparez;<br>2. bir aşağı ətrafın güdülü və digər aşağı ətrafın funksional yararsız vəziyyətdə olması;<br>3. hər iki aşağı ətrafın müxtəlif səviyyədə güdülü, protezləşməyə yararlı olmasından asılı olmayaraq;<br>4. hər iki ayaq pəncəsinin Şopar oynağı səviyyəsində amputasion güdülü;<br>5. aşağı ətraf oynaqlarının endoprotezləşməsindən sonrakı ağırlaşmalar olduğu halda;<br>6. xroniki arterial çatışmazlığı, III mərhələ;<br>7. xroniki venoz çatışmazlığı, III dərəcə.<br>Əlilliyi olan şəxslərdə yuxarıda qeyd edilən tibbi göstərişlər | 1. ağır və dərin əqli çatışmazlıq, demensiyalı ruhi pozuntular;<br>2. epileptik sindrom;<br>3. əhəmiyyətli görmə məhdudiyyəti (əlilliyi olan şəxsin hər iki gözünün görmə itiliyi 0,04-dən aşağı və ya görmə sahəsi 5 (beş) dərəcədən aşağı olduqda);<br>4. stenokardiya, IV funksional sinif;<br>5. statika və hərəkət koordinasiyalarının əhəmiyyətli ciddi pozuntuları;<br>6. yuxarı ətrafda və gövdənin yuxarı hissəsində tam hərəkətsizlik; | 1 ədəd | 5 il | 6 ay | | təmir müddəti 30 iş günü |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | aşağıda qeyd olunmuş yuxarı ətrafın patologiyaları ilə birlikdə olduğu hallarda təyin edilir:<br>1. hər iki yuxarı ətrafın hərəkətsizliyi;<br>2. hər iki yuxarı ətrafda hərəkətin kəskin məhdudlaş-ması, çiyin və dirsək oynaq-larında aktiv hərəkətin amplitudası, 13-20 dərəcə, biləkdə 9-14 dərəcədən aşağı olduqda, kontraktura nəticə-sində barmaqlar ovucdan 3-4 sm aralı qalarsa, xırda əşyaları tutmağın və iri əşyaları uzun müddət ərzində saxlamağın imkansızlığı, yuxarı ətrafın əzələ gücünün 2 (iki) bala qədər enməsi və hər iki yuxarı ətrafda çiyin əzələlərinin 6,0-6,5 sm-ə qədər, bazunun ön əzələlərinin isə 3,5-4,0 sm atrofiyası nəticəsində yaranan əhəmiyyətli funksiya pozuntusu | 7. xroniki ürək çatışmazlığı,<br>III dərəcəli;<br>8. tənəffüs çatışmazlığı,<br>III dərəcəli;<br>9. həzm orqanı xəstəlikləri<br>(III dərəcəli bədən kütləsi defisiti,<br>qaraciyər sirrozu assitlə, mütəmadi qanaxmalarla ağırlaşan qida borusunun və mədənin<br>III dərəcəli damar genişlənməsi);<br>10. genital-urinar sistemi xəstəlikləri,<br>III dərəcəli xroniki böyrək çatışmazlığı və sistemli hemodializə əks göstəriş olduqda;<br>11. bədxassəli törəmələr,<br>IV kliniki qrup;<br>12. narkomaniya,<br>II-III dərəcəli xroniki alkoqolizm | | | | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **56.** | **Sanitar-təchizatlı təkərli oturacaq** | təkərli oturacaq təyin edilmiş xəstələrdə sidiyin və nəcisin ifrazı qeyri-iradi olduqda təyin edilir | | 1 ədəd | 2 il | 3 ay | | dəyişdirilmə müddəti 10 iş günü; təmir müd-dəti 1 ay |
| **57.** | **Minik avtomobili** | aşağıdakı tibbi göstərişlər olduğu hallarda təyin edilir:<br>1. ikinci (II B) dərəcəli xroniki qan dövranı çatışmazlığı;<br>2. ağciyər çatışmazlığı, II dərəcəli;<br>3. bir aşağı ətrafın iflici və ya nəzərəçarpan parezi;<br>4. hemiplegiya, nəzərəçarpan hemiparez;<br>5. nəzərəçarpan ataksiya, hi-perkinetik amiostatik sindrom;<br>6. hər iki aşağı ətrafın xroniki tromboobliterasiyaedici xəstəlikləri, II dərəcə arterial çatışmazlıqları, aşağı ətraf venalarının xəstəlikləri, hər iki aşağı ətrafda II-III dərəcə venoz çatışmazlığı, trofiki pozuntularla;<br>7. hər iki aşağı ətrafın fillik xəstəliyi;<br>8. hər iki pəncənin Şopar və yaxud daha yüksək səviyyədə güdülü;<br>9. aşağı ətrafın baldır və yaxud bud səviyyəsində güdülü;<br>10. hər iki bud-çanaq oyna-ğının ankilozu;<br>11. onurğanın ayaq üstə durmağı və hərəkəti xeyli çətinləşdirən xəstəlikləri, deformasiyaları. | | 1 ədəd | istifadə müddəti müəyyən edilmədən | | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | Onurğa sütunu funksiyasının kəskin nəzərəçarpan pozulması ilə müşahidə olunan III-IV dərəcəli əyilmələr;<br>12. bir aşağı ətraf və ya çanaq qurşağı sümüklərinin xroniki osteomieti (2 ildən artıq gedişli fistula və ya sekvestrli boş-luqların olması ilə);<br>13. aşağı ətrafda böyük ölçülü (sümük çevrəsinin yarısından artığı dağıldıqda) sümük defekti və yaxud uzun müddət sağalmayan xora (10 $sm^2$-dən böyük) olduqda;<br>14. hər iki bud və yaxud baldır sümüklərinin əyri bitişmiş sınığı nəticəsində aşağı ətrafın funksiyasının kəskin pozulması, hər iki bud-çanaq və yaxud hər iki diz oynaqlarında kəskin kontraktura olduğu halda;<br>15. əlilliyi olan şəxsin hər iki gözünün görmə itiliyi 0,04-dən aşağı və ya görmə sahəsi 5 (beş) dərəcədən aşağı olduqda | | | | | | |